# Qafqaz Universitetində III beynəlxalq uşaq ədəbiyyatı simpoziumu keçirilib



21-23 aprel tarixlərində Qafqaz Universitetində bu ali təhsil ocağının Azərbaycan Yazıçılar Birliyi ilə birgə təşkil etdiyi III Beynəlxalq uşaq ədəbiyyatı simpoziumu keçirildi.

Tədbirdə öncə Azərbaycanın Dövlət himni səsləndirildi, vətənimizin azadlığı yolunda şəhid olanların xatirəsi anıldı.

Sonra Qafqaz Universitetinin fəaliyyətindən bəhs edən film nümayiş olundu. Simpoziumu giriş sözü ilə açan Qafqaz Universitetinin rektoru, professor Ahmet Saniç 7 ölkənin 40 fərqli universitetindən təşrif gətirmiş elm adamları, uşaq ədəbiyyatı yazarları, uşaq jurnal və qəzetlərinin redaktorları və qonaqların III Beynəlxalq uşaq ədəbiyyatı simpoziumunda iştirakından məmnunluq duyduğunu qeyd etdi. Bildirdi ki, bu simpozium 2008 və 2012-ci illərdə keçirilmiş "Uluslararası Türk Halkları Çocuk Edebiyyatı Konqresi"nin davamı olmaqla uşaq ədəbiyyatının inkişaf etdirilməsində mühüm əhəmiyyətə malik bir hadisədir.

Ümummilli lider Heydər Əliyevin "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır" sözlərini xatırladan rektor gənclərin milli-mənəvi dəyərlərə sahib olmaları üçün tərbiyə sisteminə son dərəcə ciddi yanaşmağın vacibliyini diqqətə çatdırdı.

Daha sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar milli-mənəvi və bəşəri dəyərlərin qorunmasında, inkişaf etdirilməsində ədəbi tərbiyənin rolunu yüksək dəyərləndirdi. Qeyd etdi ki, Yazıçılar Birliyi təhsildə yüksək meyarlara cavab verən Qafqaz Universiteti ilə bu sahədə daim əməkdaşlıq etmiş, təklif və səylərini əsirgəməmişdir.

Təhsil Nazirliyinin Tədris resursları şöbəsi müdirinin müavini Əsgər Quliyev xalqlar arasında ədəbi sahədə əlaqələrin genişlənməsində, milli-mənəvi dəyərlərin inkişaf etdirilməsində, eləcə də sürətlə dəyişən dünyanın tələblərinə çevik münasibət göstərilməsində, uşaqların gələcəyə hazırlanmasında III Beynəlxalq uşaq ədəbiyyatı simpoziumunun rolunu yüksək dəyərləndirdi. Qeyd etdi ki, Təhsil Nazirliyi bu istiqamətdə bir çox layihələr həyata keçirir. Bu layihələrin əsas məqsədi uşaqlarımızın milli ədəbiyyatımızı, dünya ədəbiyyatını daha dərindən öyrənilməsinə, mütaliəyə marağının artırılmasıdır.

Türkiyənin Hacəttəpə Universitetinin professoru, doktor Şükrü Haluk Akalın, Qafqaz Universitetinin türk dili və ədəbiyyatı bölümünün müdiri, professor Ömər Okumuş, Azərbaycan dili və ədəbiyyatı bölümünün müdiri, professor Akif Hüseynli çıxışlarında uşaq ədəbiyyatının uşaqların tərbiyəsində müstəsna əhəmiyyətə malik olduğunu vurğulayaraq "uşaqların dünyaya kitabla göz açması"nı arzuladılar. Bildirdilər ki, simpoziumda uşaq ədəbiyyatının mövcud vəziyyəti və qarşıda duran vəzifələri müəyyənləşdiriləcək, bu mühüm sahənin inkişafı, xüsusən uşaq ədəbiyyatının təhsil müəssisələrində tədrisi məsələləri təhlil ediləcək. Qeyd edək ki, simpozium ərəfəsində universitetin foyesində uşaq ədəbiyyatı ilə bağlı kitabların sergisi təşkil olunmuşdu.

Üç gün davam edən simpoziumun bölmə iclaslarında müxtəlif elm adamlarının məruzələri, çıxışlar dinlənildi.

Simpoziumun üçüncü günü xarici ölkələrdən gələn elm adamları Bakı şəhərinin tarixi məkanları ilə tanış oldular.

**Yusif ƏLİYEV,**
*"Azərbaycan müəllimi"*